Ağaşahqızı, Y. Qısa ömür yolunda əbədi iz buraxan unudulmaz qəhrəmanımız : Cənnətdəki əbədi doğum günün mübarək, şəhidim! / Yaqut Ağaşahqızı // İki sahil. - 2021. - 15 oktyabr. - № 188. - S. 8.

Şəhidlik adi ölüm deyil, Vətən uğrunda canından keçmək, özünü şüurlu şəkildə onun yolunda fəda etməkdir. Şəhidlik verilmiş ömür payını gələcək nəsillərin xoşbəxtliyinə bağışlamaqdır. Aprel şəhidlərindən olan Əbdülməcid Nadirşah oğlu Axundov da minlərlə gənc kimi, Vətən uğrunda şəhid olaraq erkən yaşda behiştin ən gözəl guşəsində özünə məkan seçib. Gəncliyini, ömrünü Vətənə fəda edən Əbdülməcid Qələbəni görməsə də, adını heç zaman unudulmayacaq qəhrəmanlar sırasına həkk edib. Oktyabrın 15-i unudulmaz qəhrəmanın doğum günüdür. Ömür vəfa etsəydi bu gün 28 yaşı olacaqdı…

2016-cı ilin Aprel döyüşləri ordumuzun işğalçı Ermənistan üzərində Qələbəsi kimi tarixə düşdü. Bu döyüşlər hərb tariximizin şanlı səhifəsidir. İllər sonra Qarabağda qazanılan Zəfər xalqımıza hədsiz sevinc və qürur hissi bəxş etdi. Təəssüflər olsun ki, döyüşlər itkisiz də ötüşmədi. Müzəffər ordumuzun Qələbəsi ilə bitən 4 günlük Aprel döyüşlərində Azərbaycanın igid övladı Axundov Əbdülməcid Nadirşah oğlu da Vətən uğrunda canından keçərək ən ali zirvəyə - şəhidlik zirvəsinə yüksəldi.

Əbdülməcid Axundov 15 oktyabr 1993-cü ildə Sumqayıtda dünyaya göz açıb. 1999-2010-cu illərdə şəhər 16 saylı orta məktəbində təhsil alıb, 2011-2015-ci illərdə Azərbaycan Texniki Universitetində elektrik mühəndisi ixtisasına yiyələnib. Ali məktəbi bitirdikdən sonra 2015-ci ilin yayında hərbi xidmətə yollanıb, Azərbaycan Silahlı Qüvvələri sıralarında çavuş rütbəsində, manqa komandiri vəzifəsində hərbi xidmət keçib. Xidmətinə əvvəlcə Gəncə, daha sonra Tərtərdəki «N» saylı hərbi hissələrində davam edib.

2016-ci il aprelin əvvəllərində Azərbaycanın ön xətt mövqeləri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalanda ordumuzun bölmələri əks-həmlə ilə təxribatların qarşısını aldı. Bu hadisə Aprel döyüşləri kimi yaddaşımıza həkk olundu. 2016-ci ilin aprel ayının 1-dən 2-nə keçən gecə təmas xəttində baş verən döyüş zamanı Əbdülməcid Axundov erməni silahlı birləşmələrinin təxribat cəhdlərinin qarşısının alınmasında şəxsi igidlik və rəşadət göstərərək qəhrəmanlıqla şəhid oldu. Şəhidimiz aprelin 9-da doğulduğu Sumqayıt şəhərində Şəhidlər xiyabanında son mənzilə yola salındı.

Əbdülməcid Axundov göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə “Hərbi xidmətdə fərqlənməyə görə” III dərəcəli medalı ilə təltif edilib.

Ailənin kiçik övladı Əbdülməcid hələ uşaqlıqdan həmyaşıdlarından dürüstlüyü, cəsarəti ilə seçilərdi. Hələ uşaq yaşlarından Vətənə bağlılığı, sevgisi ilə öz həmyaşıdlarından fərqlənərdi. Şəhidin anası Ceyran Axundova deyir ki, Əbdülməcid hər zaman işğalda olan torpaqlarımız haqqında danışar və ərazilərimizin azad olunması uğrunda lazım gələrsə şəhid olmağa da hazır olduğunu bildirərdi. Ceyran xanım şəhid oğlunun uşaqlığını xatırlayanda sanki xəyala dalır. Onun dili danışsa da, gözləri bir nöqtəyə zillənir. Sanki bütün bunlar onun gözünün önündən bir lent kimi keçir. Şəhid anası onu da bildirir ki, oğlu Mübariz İbrahimovun dəfn mərasiminə dəfələrlə baxır, ona qibtə edirmiş. Azərbaycan əsgərləri öz canları, qanları bahasına bu qələbələri qazandılar. Beləcə düşmənin öz ordusu haqqında

formalaşdırdığı yanlış təsəvvürləri, əfsanələri yerlə-yeksan etdilər. İgid qəhrəman oğullar bir daha sübut etdilər ki, Azərbaycan xalqı torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq və barışmadı da! Ali Baş Komandanın rəhbərliyi ilə ordumuz 44 günlük Vətən müharibəsində dünya hərb tarixini qızıl hərflə yazılan şanlı Qələbə qazandı, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi.

Ömür kitabı gənc yaşında bağlanan igid, sənin adın hər birimizin qəlbində əbədi yaşayacaq. Torpağımızı mənfur düşməndən azad etmək üçün sinəni sipər, canını fəda etdin, şəhid olmağı seçdin. Torpağı qanınla suvardın ki, bu yerlərdə dünyanın ən gözəl gülü-Xarıbülbül yenidən bitsin.... Bundan sonra neçə əsr keçsə də, hər gələn nəsil sənin ayaq izlərini görəcək, açdığın cığırla irəliləyəcək, neçə-neçə Əbdülməcidlər yetişəcək...

Son sözü "Vətən sağ olsun!" olan qəhrəman şəhidim, qanın Azərbaycan bayrağının qırmızı rənginə qarışıb, indi işğaldan azad edilən Qarabağımızda vüqarla dalğalanır!..

Şəhidimiz, sənsiz keçən 28-ci doğum günün mübarək! Ruhun şad, yerin behişt olsun!